




AZƏRBAYCAN RESPUBLİKASI ƏDLİYƏ NAZİRLİYİ
MƏHKƏMƏ EKSPERTİZASI MƏRKƏZİ

**N.Abbasov, H.Hacıyev, A.Kişiyeva**


# Ekspertiza tədqiqatına təqdim edilən obyektlər üzərində əl-barmaq izlərinin aşkar edilməməsi səbəblərinin ümumiləşdirilməsi və nəticələrinə dair metodik tövsiyələr

*(2016-2020-ci illər üzrə)*

**AZƏRBAYCAN RESPUBLİKASI ƏDLİYYƏ NAZİRLİYİ**
**MƏHKƏMƏ EKSPERTİZASI MƏRKƏZİ**

N.Abbasov, H.Hacıyev, A.Kişiyeva

# Ekspertiza tədqiqatına təqdim edilən obyektlər üzərində əl-barmaq izlərinin aşkar edilməməsi səbəblərinin ümumiləşdirilməsi və nəticələrinə dair metodik tövsiyələr

(2016-2020-ci illər üzrə)

Bakı- 2021

Metodik tövsiyələr Məhkəmə Ekspertizası Mərkəzinin Ballistik və trasoloji ekspertizalar şöbəsinin əməkdaşları hüquq üzrə fəlsəfə doktoru Nail Abbasov, Hacıbala Hacıyev və Aysel Kişiyeva tərəfindən hazırlanmışdır.

**N.Abbasov, H.Hacıyev, A.Kişiyeva.** Ekspertiza tədqiqatına təqdim edilən obyektlər üzərində əl-barmaq izlərinin aşkar edilməməsi səbəblərinin ümumiləşdirilməsi və nəticələrinə dair metodik tövsiyələr. "Ləman Nəşriyyat Poliqrafiya" MMC, Bakı, 2021, 34s.

Məhkəmə-daktiloskopik tədqiqatların tam, hərtərəfli və vaxtında aparılması, qoyulan sualların elmi əsaslar üzərində həlli istintaq orqanları işçiləri tərəfindən maddi sübutların düzgün götürülməsi, qablaşdırılması və materialların ekspertizaya tam hazırlanması prosesindən və vaxtında göndərilməsindən çox asılıdır.

Qeyd etmək lazımdır ki, məhkəmə-daktiloskopik ekspertizasının tədqiqat obyektlərinə - hadisə yerindən mütəxəssis tərəfindən izlərin götürülüb köçürüldüyü daktilolentlər, daktiloplyonkalar, izlərin fotoşəkilləri ilə yanaşı, üzərində iz qalması ehtimal olunan predmetləri də aid etmək olar. Məhz bu səbəbdən məhkəmə-daktiloskopik ekspertizasının tədqiqat obyektlərinə xüsusi diqqətlə yanaşılmalı, üzərində iz qalması ehtimal olunan obyektlər düzgün qablaşdırılmalıdır ki, sonrakı tədqiqatların aparılması mümkün olsun.

Məhkəmə-daktiloskopik ekspertizasının aparılması məqsədilə təqdim olunan maddi sübutların düzgün qablaşdırılmaması tədqiqatın aparılmasını çətinləşdirir, ekspert qarşısında qoyulan sualların öz həllini tapmasına əngəl törədir. Baş verən cinayət hadisəsinin izlərini üzərində saxladığına görə və cinayət hadisəsinin açılması üçün əhəmiyyət kəsb edən halların müəyyən edilməsi məqsədilə maddi sübutların düzgün götürülməsi, qablaşdırılması, vaxtında göndərilməsi, habelə izlərin qorunub saxlanması üzrə zəruri tələblərə əməl olunması olduqca vacibdir.

© Məhkəmə Ekspertizası Mərkəzi, 2021

# I. Hadisə yerindən götürülərək ekspert tədqiqatına göndərilən obyektlər üzərində izlərin aşkar edilməməsi səbəblərinin müəyyən edilməsi məqsədilə 2016-2020-ci illər üzrə aparılmış ümumiləşdirmə nəticəsində əldə edilmiş məlumatlar

Azərbaycan Respublikası Məhkəmə Ekspertizası Mərkəzinin (bundan sonra Mərkəz) fəaliyyət istiqaməti yalnız ekspert rəylərinin tərtib edilməsi ilə məhdudlaşmır. Mərkəzin fəaliyyət istiqamətlərinə hüquq-mühafizə orqanlarına metodiki köməklik göstərmək, eləcə də cinayətkarlıqla mübarizə aparmaq məqsədilə profilaktik işlərin görülməsi aiddir. Metodiki və profilaktik fəaliyyətin daha səmərəli təşkil edilməsi üçün ümumiləşdirmənin aparılması zəruridir.

*Ümumiləşdirmə aparılmasının məqsədi*-predmetlər üzərində məhkəmə-daktiloskopik ekspertizaların daha səmərəli aparılması məqsədilə bu sahədəki çatışmazlıqları müəyyən etmək və buna şərait yaradan obyektiv və subyektiv amilləri aradan qaldırmaqdan ibarətdir.

*Ümumiləşdirmənin predmeti-* məhkəmə-daktiloskopik ekspertizasının aparılması zamanı predmetlər üzərində izlərin qalmamasının səbəblərinin müəyyənləşdirilməsi, bu növ ekspertizaların keçirilməsində istifadə edilən metodların səmərəliliyin müəyyən edilməsi, hüquq-mühafizə orqanlarına köməklik göstərmək məqsədilə tövsiyələrin hazırlanması təşkil edir.

*Ümumiləşdirmənin obyektləri*-məhkəmə-daktiloskopik ekspertizasının aparılması məqsədilə Mərkəzə təqdim edilən tədqiqat obyektləri (ekspertlərin 2016-2020-ci illər üzrə icra etdiyi rəylər üzrə).

Yuxarıda da qeyd etdiyimiz kimi hər bir dövlətin qarşısında duran əsas vəzifələrdən biri cinayətkarlıqla mübarizə aparmaqdır. Cəmiyyət həyatında baş verən dəyişikliklər, sürətli inkişaf, insanların həyat şəraitinin, intellektual səviyyələrinin dəyişməsi cinayətlərin dinamikasına təsir edir. Dinamik hərəkətdə olan cinayətlərin təhqiqatı və istintaqı prosesi xüsusi bilik sahələrindən daha səmərəli istifadəni tələb edir. Bu hər şeydən əvvəl ondan irəli gəlir ki, kriminalistika elmindən məlum olduğu kimi heç bir cinayət hadisəsi izsiz qalmır, hər bir cinayət hadisəsi müəyyən izlərin qoyulması ilə müşayət olunur. Cinayətlər nə qədər müxtəlif və fərdidirsə, cinayət nəticəsində qalmış izlərdə bir o qədər fərdi və təkrarolunmazdır. Cinayət hadisə törədilən zaman izlərin aşkar edilməsi, götürülməsi və qablaşdırılması zamanı xüsusi elmi biliklər tətbiq edilir.Xüsusi elmi biliklər məhkəmə ekspertizası fəaliyyətində realizə olunur. Hüquq ədəbiyyatında xüsusi elmi biliklərə aşağıdakı formada anlayış verilir:

*Xüsusi elmi biliklər* – insan fəaliyyətinin müəyyən sahəsinə aid olan elmi əsaslı biliklər, məlumatlar sistemidir və bu məlumatlar konkret sahələr üzrə ixtisaslaşmış peşəkar fəaliyyət zamanı nəzəriyyə və təcrübənin qarşılıqlı əlaqəsinin nəticəsi olaraq əldə olunur. Xüsusi biliklərin məzmununa peşəkar təcrübə, vərdiş və bacarıqlar daxil edilir [2; 16].

"Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanuna əsasən məhkəmə ekspertizasına aşağıdakı kimi anlayış verilir:

*Məhkəmə ekspertizası*- təhqiqat, ibtidai istintaq orqanının və ya məhkəmənin (hakimin) icraatında olan işin halları barədə informasiya daşıyan maddi obyektlər, hadisələr



və proseslər haqqında xüsusi elmi biliklər əsasında aparılan tədqiqatdır.

Hər iki anlayışın mahiyyətindən belə qənaətə gəlmək olur ki, məhkəmə ekspertizasının təyin olunması və aparılması cinayət mühakimə icraatı üzrə xüsusi elmi biliklərin tətbiqinin prosessual formasıdır. Lakin onu da nəzərə almaq lazımdır ki, xüsusi elmi biliklərin prosessual qaydada tətbiqi mütəxəssisin cəlb olunması ilə də mümkündür. Bu məsələ qanunvericilikdə də öz əksini tapmışdır. Amma ekspertlərdən fərqli olaraq, mütəxəssis obyektlərin tədqiqatını aparmır, ixtisasına aid olan məsələlərə dairhüquq mühafizə orqanlarına köməklik göstərir.

Mərkəzdə aparılan trasoloji ekspertizaların əsas növlərindən biri məhkəmə-daktiloskopik ekspertizasıdır.Bu ekspertizanın tədqiqat obyektləri çox geniş olduğundan ekspertiza qarşısında qoyulan məsələlərin həllində müxtəlif metodlardan istifadə edilir.

Daktiloskopiya trasologiyanın bir yarım növü olub, şəxsiyyətin eyniləşdirilməsi, cinayətkarların qeydiyyatı və axtarışı məqsədilə insanın əl-barmaq və ovuc hissəsini örtən papilyar naxışların quruluşunu və xüsusiyyətlərini öyrənən sahədir. Daktiloskopiya çox böyük elmi, nəzəri və hüquqi bazaya malik olmaqla yanaşı, demək olar ki, ilk ekspertiza növlərindən sayılır. Azərbaycan Respublikasında ilk məhkəmə-daktiloskopik ekspertizaları1957-ci ildə keçirilmişdir. Mərkəzdə bu ekspert ixtisası üzrə zəruri avadanlıqlar, eləcə də ixtisaslı kadr ehtiyatı vardır. Bu sahədəki ekspert rəylərinin beynəlxalq aləmdə tanınmasını təmin etmək məqsədilə Mərkəzdə aparılan məhkəmə-trasoloji ekspertiza növünə aid "6.1. İnsan izlərinin tədqiqi" ekspert ixtisası üzrə tətbiq edilən

metodlar İSO/İEC 17025 standartına uyğunlaşdırılaraq akkreditasiyadan keçirilmişdir.

Məhkəmə-daktiloskopik tədqiqatların tam, hərtərəfli və vaxtında aparılması, qoyulan sualların elmi əsaslar üzərində həlli istintaq orqanları işçiləri tərəfindən maddi sübutların düzgün götürülməsi, qablaşdırılması və materialların ekspertizaya tam hazırlanması prosesindən və vaxtında göndərilməsindən çox asılıdır.

Qeyd etmək lazımdır ki, məhkəmə-daktiloskopik ekspertizasının tədqiqat obyektlərinə - hadisə yerindən mütəxəssis tərəfindən izlərin götürülüb köçürüldüyü daktilolentlər, daktiloplyonkalar, izlərin fotoşəkilləri ilə yanaşı üzərində iz qalması ehtimal olunan predmetləri də aid etmək olar. Məhz bu səbəbdən məhkəmə-daktiloskopik ekspertizasının tədqiqat obyektlərinə xüsusi diqqətlə yanaşılmalı, üzərində iz qalması ehtimal olunan obyektlər düzgün qablaşdırılmalıdır ki, sonrakı tədqiqatların aparılması mümkün olsun.

Lakin ekspertiza təcrübəsi göstərir ki, bəzən istintaq-məhkəmə orqanlarının əməkdaşlarıcinayətin əlamətlərini özündə əks etdirən izlərlə işləyərkən kriminalistikanın üsul və vasitələrindən tam istifadə etmirlər.Ona görə də ekspertiza təyin etmə zamanı göndərilən materiallar keyfiyyətsiz, yarımçıq olub düzgün qablaşdırılmır. Bir sıra hallarda istintaq orqanları işçiləri maddi sübutların götürülməsi və qablaşdırılması qaydalarını mükəmməl bilmədiklərindən izlər və predmetlər ya düzgün götürülmür, ya da götürülərkən yararsız hala salınır. Hadisə yerində aşkar edilmiş üzərində iz qalması ehtimal edilən predmetlərin düzgün götürülüb qablaşdırılmaması latent izlərin (yəni görünməyən və ya zəif



görünən izlər) məhv olmasına səbəb olur.

Məhkəmə-daktiloskopik ekspertizasının aparılması məqsədilə təqdim olunan maddi sübutların bu cür qablaşdırılması tədqiqatın aparılmasını çətinləşdirir, ekspert qarşısında qoyulan sualların öz həllini tapmasına əngəl törədir. Baş verən cinayət hadisəsinin izlərini üzərində saxladığına görə və cinayət hadisəsinin açılması üçün əhəmiyyət kəsb edən halların müəyyən edilməsi məqsədilə maddi sübutların düzgün götürülməsi, qablaşdırılması, vaxtında göndərilməsi, habelə izlərin qorunub saxlanması üzrə zəruri tələblərə əməl olunması olduqca vacibdir.

*Hadisə yerinin müayinəsi* - cinayət hadisəsi ilə əlaqədar əmələ gələn, istintaq üçün əhəmiyyət kəsb edən və sübut vasitəsi kimi istifadə olunan izlərin tapılması, qeyd edilməsi və götürülməsi üçün hər şeydən əvvəl hadisə yerinə baxış keçirilməlidir. Belə ki, hər bir cinayətin izlərinin böyük bir hissəsi hadisə yerində qalır. Hadisə yerinə baxışın səmərəli keçirilməsi, maddi sübutların tapılmasının və götürülməsinin effektiv olması seçilən taktiki üsullardan, texniki vasitələrdən, müstəntiqin ümumi peşə və təşkilati-texniki hazırlığından asılıdır. Hadisə yerində qalan izlərin axtarılıb-tapılmasında və düzgün qablaşdırılmasında müstəntiqlə yanaşı, işə cəlb edilən mütəxəssisin də dərin bilik, bacarıq və peşə təcrübəsinə malik olması mühüm rol oynayır.

Baxışın müvəffəqiyyətini təmin edən əsas şərt kriminalistik texnikanın işləyib hazırladığı qaydalara və texniki vasitələrin tətbiqinə əməl edilməsi ilə bağlıdır. Lakin hadisə yerindən üzərində iz qalması ehtimal olunan obyektlərin götürülüb qablaşdırılması və aparılan ekspertizaların nəticələri tərəfimizdən uğurlu hesab edilmir.

Bu sahədəki çatışmazlıqları müəyyən etmək və buna şərait yaradan obyektiv və subyektiv amilləri aradan qaldırmaq məqsədilə 2016-cı il tarixdən Mərkəzə daxil olan predmetlər üzərində əl-barmaq və papilyar naxış izlərinin müəyyən edilməsi məqsədilə təyin olunan qərarların və ekspert rəylərinin ümumiləşdirilməsi aparılmışdır. Aparılan ümumiləşdirmə göstərir ki, əsasən aşağıdakı cinayət işləri üzrə məhkəmə-daktiloskopik ekspertizası təyin olunur:




- Qəsdən adam öldürmə (Cinayət Məcəlləsinin – 120.1-ci maddəsi) - 103iş üzrə;

- Özünü öldürmə həddinə çatdırma (Cinayət Məcəlləsinin 125-ci maddəsi)- 41 iş üzrə;

- Sağlamlığa xəsarət yetirmə (Cinayət Məcəllesinin 126-128-ci maddəsi)- 21iş üzrə;

- Hədə -qorxu ilə tələb etmə (Cinayət Məcəllesinin 182-ci maddəsi)- 4 iş üzrə;

- Oğurluq (Cinayət Məcəllesinin 177-ci maddəsi)- 13



iş üzrə;

- Qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, satma, saxlama, daşıma, gəzdirmə (Cinayət Məcəllesinin 228-ci maddəsi)- 8 iş üzrə;

- Silahla və ətrafdakılar üçün təhlükə törədən əşyalarla davranış qaydalarını pozma (Cinayət Məcəllesinin 350-ci maddəsi)- 2 iş üzrə;

- Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələrivə ya onların prekursorlarını hazırlama, istehsal etmə, saxlama, daşıma, göndərmə və ya satma (Cinayət Məcəllesinin 234-cü maddəsi)- 32 iş üzrə;

- Odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə qorxu ilə tələb etmə (Cinayət Məcəllesinin 232-ci maddəsi) -2 iş üzrə;

- Zorlama (Cinayət Məcəllesinin 149-cu maddəsi)- 2 iş üzrə.

Toplanılan məlumatlardan müəyyən etmək olur ki,təhqiqat və istintaq orqanları, eləcə də məhkəmələr daha çox ictimai təhlükəlilik dərəcəsi yüksək olan cinayət işlərinin araşdırılması zamanı predmetlər üzərində əl-barmaq izlərinin aşkar edilməsi məqsədilə məhkəmə-daktiloskopik ekspertiza-sının aparılmasını təyin edirlər.Bu da təsadüfi deyildir. Məlumdur ki, hüquq-mühafizə orqanları, eləcə də məhkə-mələr üçün məhkəmə ekspertizasının təyin edilməsində əsas məqsəd cinayətin baş vermə mexanizmini açmaqda köməklik edəcək sübut əhəmiyyətli faktların müəyyənləşdirilməsidir. Məhkəmə-daktiloskopik ekspertizası da öz növbəsində cinayətin motivinin müəyyən edilməsində, əməldə diaqnostik və eyniləşdirici xarakterli məsələlərin həllində, ən əsası isə

cinayət törədənin şəxsiyyətinin müəyyən edilməsində çox böyük əhəmiyyət kəsb edir. Eyni zamanda məhkəmə-daktiloskopik ekspertizası predmetlər üzərində əl izlərinin müəyyən edilməsi ilə şahid ifadələrinin doğruluğunu və ya əksinə yalan olduğunu müəyyən etməyə, eləcə də izlərdə bərpa olunmayan fərdi əlamətlərə əsasənhüquq mühafizə orqanlarına şübhəli şəxslərin dairəsini məhdudlaşdırmağa imkan verir.




Ümumiləşdirməyə nəzər saldıqda predmetlər üzərində məhkəmə-daktiloskopik ekspertizasını daha çox aşağıdakı istintaq orqanlarının təyin etdiyi aydın olur:

1. Azərbaycan Respublikasının şəhər (rayon) prokurorluqları – 142 iş üzrə;
2. Azərbaycan Respublikasının hərbi prokurorluqları – 31 iş üzrə;
3. DİN-nin şəhər(rayon) polis idarələri – 34 iş üzrə.



Yuxarıda da qeyd etdiyimiz kimi ictimai təhlükəlilik dərəcəsi yüksək olan cinayət işlərinin istintaqı zamanı predmetlər üzərində əl-barmaq və papilyar naxış izlərinin müəyyən edilməsi məqsədilə məhkəmə-daktiloskopik ekspertizası təyin olunur. Bu kateqoriya cinayətlərin istintaqını aparan orqanlar məlum olduğundan ümumiləşdirmənin bu hissəsində nəticənin bu formada alınması anlaşılandır.

Aparılmış ümumiləşdirmənin nəticəsi olaraq qeyd etmək lazımdır ki, məhkəmə-daktiloskopik ekspertizasının təyin edilməsi barədə 234 qərarla Mərkəzə 339 predmet daxil olmuşdur *(bir qərar üzrə bir neçə predmet daxil olmuşdur)*.

Eyni zamanda aparılan ümumiləşdirmə zamanı məlum olmuşdur ki, predmetlər üzərində əl-barmaq izlərinin aşkar edilməsi ilə bağlı məhkəmə-daktiloskopik ekspertizalarının təyin edilməsi ilə bağlı 234 qərardan 76-sı üzrə tədqiqat obyektləri Mərkəzə cinayət hadisəsindən əhəmiyyətli zaman kəsiyi keçdikdən sonra daxil olmuşdur. Bu hal daha çox AR-nınşəhər (rayon) prokurorluqlarının təyin etdiyi cinayət işləri üzrə tədqiqat obyektlərinin göndərilməsi zamanı müşahidə edilir. Belə ki, AR-nın şəhər (rayon) prokurorluqları məhkəmə-daktiloskopik ekspertizaların aparılması üçün 142 cinayət işi üzrə tədqiqat obyektləri (predmetlər) göndərmiş, lakin bunlardan 35cinayət işi üzrə qərar və tədqiqat obyektləri cinayət hadisəsi baş verdikdən xeyli müddət keçdikdən sonra Mərkəzə daxil olmuşdur *(2 iş üzrə-5ay, 5 iş üzrə-4 ay, 6 iş üzrə-3 ay, 22 iş üzrə- 2ay keçdikdən sonra)*. Prokurorluğun ağır və xüsusilə ağır cinayətlərin istintaqını aparmasını nəzərə alaraq bu sahədə aşkar edilmiş hal tərəfimizdən arzuolunmaz hal kimi qiymətləndirilir.

Predmetlər üzərində məhkəmə-daktiloskopik ekspertizasının aparılması zamanı müsbət nəticə əldə etmək üçün üzərində əl-barmaq və papilyar naxış izlərinin qalması ehtimal olunan maddi sübutlar ekspertizaya yubadılmadan, ən qısa müddətdə göndərilməlidir. Belə ki, mövcud təcrübəyə əsasən predmetlər üzərində izlərin qalma müddətlərinə üzərinə iş düşən obyektin xüsusiyyəti, cinayət açıq havada törədilibsə havanın temperaturu, nəmliyi, tozlanması, atmosfer çöküntüləri, insan tərin keyfiyyəti və miqdarı, cinayətin hansı fəsildə törədilməsi, hadisənin baş vermə şəraiti və digər hallar təsir edir. Predmetlər üzərində izlərin itməməsi məqsədilə istintaq orqanları cinayət işi başladıqdan dərhal sonra məhkəmə-daktiloskopik ekspertizasını təyin edərək tədqiqat obyektlərini Mərkəzə göndərməlidirlər. Qeyd edilən xüsusiyyətlərin nəzərə alınması, o cümlədən obyektlər üzərində izlərin qalma xüsusiyyətlərinin də diqqətdə saxlanılmasını labüd edir. Təcrübə göstərir ki, çox zaman izin obyekt üzərində qalma xüsusiyyətlərinə diqqət yetirilmir.

Müvafiq dövr üzrə aparılan ümumiləşdirməyə əsasən Mərkəzə məhkəmə-daktiloskopik ekspertizasının aparılması ilə bağlı daha çox aşağıdakı obyektlər daxil olmuşdur:

1. Bıçaqlar – 77 cinayət işi üzrə;
2. Tüfəng- 44 cinayət işi üzrə;
3. Avtomatik silah – 39 cinayət işi üzrə.

Məhkəmə-daktiloskopik ekspertizasının təyin edilməsi ilə əlaqədar qərarlar araşdırılan zaman məlum olmuşdur ki, əgər tədqiqat obyektibıçaqdırsa ekspert qarşısında daha çox bıçağın dəstəyində, bəzi hallarda dəstəyində və tiyəsində əl-barmaq və papilyar naxış izlərinin olub-olmaması sualları



qoyulur. Qərarda müstəntiq tərəfindən bıçağın dəstəyində izin olub-olmaması sualı qoyulduqda dəstək üzərində insanın ovucunun dinamik hərəkəti nəzərə alınmalıdır.Əgər tədqiqat obyekləri tüfəng və ya avtomatik silahlardırsa ekspert qarşısında daha çox silahın tətiyində, qundağında, giliz üzərində, bəzən isə silahın səthində əl-barmaq və papilyar naxış izlərinin olub-olmaması soruşulur.



## II. Tədqiqat obyektlərinin qablaşdırılmasında yol verilən nöqsanlar

Tədqiqat obyektləri Mərkəzə ya zərflərdə, ya qəzet parçalarına bükülmüş formada, ya da polietilen torbaya bükülərək üzərinəyapışqanlı lent kəsikləri (skotç) çevrilmiş formada daxil olurlar. Tüfənglər və avtomatik silahlar isə lüləsi pambıqla bağlanaraq daha çox parça torbalarda, bəzən isə kağız kartonlarda Mərkəzə göndərilirlər*(bax fotoşəkil 1-4)*.






Fotoşəkil 1, 2. Mərkəzə tədqiqata təqdim edilmiş silahın bağlamasının və onun içərisində silahın yerləşdirilməsinin ümumi görünüşü.







Fotoşəkil 3,4. Mərkəzə tədqiqata təqdim edilmiş bıçağın olduğu zərfin və onun qəzetə bükülməsinin ümumi görünüşü.

Tədqiqat obyektləri üzərində izlərin qalması və aparılacaq tədqiqatlardan müsbət nəticələrin əldə edilməsi üçün düzgün qablaşdırılmalıdır.

*Predmetlərin qablaşdırılmasında aşağıdakı nöqsanlara yol verməк olmaz:*

1. Silahı hər hansı bir kisəyə qoyub skotç vasitəsilə ilə onu kisənin kənarlarına sıxmaqla bağlamaq olmaz. Çünki bu zaman kisə silahın üzərindəki izlərin itməsinə səbəb ola bilər.
2. Məişət əşyalarını (məslən, stəkan, qənd qabı, butulka) polietilen bağlamaya qoyaraqüzərindən yapışqanlı lentlə (skotç) bağlamaq olmaz. Çünki bu zaman yüksək nəmlik və rütubət, eləcə də toxunma ilə əlaqədar predmetlər

üzərində izlər itə bilər.

3. Tədqiqat obyekti olan bıçaqları qəzet parçalarına büküb yapışqanlı lent kəsikləri ilə bərkitmək olmaz. Çünki bu zaman bıçağın səthində olan izlər kağızla təmas nəticəsində silinə bilər.
4. Tədqiqat obyekti olan dəri çantaları, sənədləri, pul qabları polietilen torbalara büküb yapışqanlı lentlə çevrilmək olmaz. Bu zaman yaranan rütubət və sürtünmə izlərin itməsinə səbəb ola bilər [4; 122-123].

Məhkəmə-daktiloskopik tədqiqatların aparılması zamanı predmetlərin qablaşdırılmasında aşağıdakı vasitələrdən istifadəni tövsiyə edirik*(bax fotoşəkil 5-8)*.



Fotoşəkil 5-8. Hadisə yerindən götürülmüş maddi sübutların qablaşdırılması zamanı istifadəsi tövsiyə olunan qutular və plombların ümumi görünüşü.



Qeyd etdiyimiz məlumatlar istintaq orqanları tərəfindən cinayət işlərinin istintaqı zamanı məhkəmə-daktiloskopik ekspertizasının təyin edilməsi zamanı yol verilən nöqsanlar əsasında aparılmış ümumiləşdirməyə əsasən hazırlanmışdır.

Ümumiləşdirmənin məqsədini tam əhatə etmək üçün Mərkəzdə predmetlər üzərində izlərin aşkar edilməsi istiqamətində aparılan tədqiqatların analizi daha dolğun təsvir yaratmış olar.

## III. Tədqiqata təqdim edilmiş predmetlər üzərində əl-barmaq izlərinin tədqiqatı

İnsanın əl-barmaq və ovuc izlərinin eyniləşdirmə aparılmasına imkan verən xüsusiyyətlərindən biri də onların müxtəlif əşyalar üzərində əks olunma qabiliyyətinə malik olmasıdır. Bu insanın əl-barmaqlarındakı məməcik qatının tər ifraz edən vəziləri ilə bağlıdır. Tər vəziləri epidermisin özünəməxsus dəyişkənliyidir, dəri örtüyünün dərialtı yağ yumaqcıqlarının kənarında yerləşir. Tərin əsas komponentlərini su- 97,7%-99,6% və 2,3 dən 0,4%-ə qədəri qeyri-üzvi maddələr təşkil edir. Tərin tərkibinə qeyri-üzvi maddələrdən ammiak, kalium fosfat, kalsiy, natrium xlorid, üzvi maddələrdən sidik duzu və yağlı uçucu turşular daxildir. Buna görə də insanın əli hər hansı predmete toxunduqda tər-yağ və əldə olan digər maddələrin həmin əşyaların səthinə keçməsi nəticəsində əl-barmaqlardakı papilyar naxışlar da həmin əşyalara köçür. Qısacası insanların əl-barmaq izləri qeyri-üzvi maddələrin hesabına əks olunur.

Daktiloskopiyanın bir əsrdən çox tarixi ərzində papilyar naxış izlərinin aşkar edilməsinin əhəmiyyətli metod vəvasitələri müəyyənləşdirilmişdir.Xüsusi ədəbiyyatlarda izlərin aşkar edilməsi metodlarını fiziki, kimyəvi, fiziki-kimyəvi və mikrobioloji metodlara bölürlər. Mərkəzə daxil olan predmetlər üzərində əl-barmaq izlərinin aşkar edilməsi zamanı tətbiq ediləcək metodlar ekspertlər tərəfindən sərbəst seçilir. Lakin ekspert təcrübəsigöstərir ki, predmetlər üzərində əl-barmaq və papilyar naxış izlərinin aşkar edilməsində həlledici qabiliyyətinə görə metodların iki qrupu fərqləndirilir:



1. Papilyar xətlərin kənarlarının yüksək səviyyədə köçürülməsini təmin edənmetodlar- termovakuum tozlanma, yod, his metodu və sair.
2. Papilyar xətlər səviyyəsində həlledici aşkarlanma qabiliyyətli metodlar - əksər tozlar, kimyəvi metodlar [2; 59-60].

Aparılan araşdırma zamanı əldə olunan məlumatlara əsasən qeyd etməkolar ki, müvafiq dövrüzrə Mərkəzə daxil olan predmetlər üzərində əl-barmaq və papilyar naxış izlərinin aşkar edilməsində daha çoxhəlledici aşkarlanma qabiliyyətli metodlara üstünlük verilmişdir. Mərkəzin ekspertləri tədqiqat obyektləri üzərində əl-barmaq və papilyar naxış izlərinin aşkar edilməsində daha çox fiziki və kimyəvi metodlardan istifadə edilmişdir. Belə ki, aparılan araşdırmaya əsasən Mərkəzə daxil olan 56 predmetdən 24-nün səthi fiziki üsulla, 32-nin səthi kimyəvi üsulla işlənilmişdir.

İzlərin aşkar edilməsi məqsədilə tədqiqat obyektlərinin səthinin işlənilməsi metodunun seçilməsində ekspertlər müstəqildir. Lakin bununla belə tədqiqata daxil olan predmetlərin fərdi xüsusiyyətləri, izlərin yaranmasının ehtimal olunan müddətitətbiq ediləcək metodun ekspert tərəfindən seçilməsində həlledici rol oynayır.

*Predmetlər üzərində əl-barmaq və papilyar naxış izlərinin aşkar edilməsində fiziki metodların tətbiqini şərtləndirən amillər:*

- tədqiqata daxil olan predmetlərin səthi yağlıdırsa, çirklidirsə, qana və digər maddələrə bulaşmışdırsa;
- tədqiqata təqdim edilmiş predmetlərin səthi kombinə edilmiş materiallardan ibarət olduqda (məsələn, bıçağın

dəstəyi dəridən, taxtadan və ya metaldan olduqda);

- tədqiqata daxil olan predmetlər üzərində 1 ayadək müddətə yaranmış izlərin aşkarlanması zamanı.

Mərkəzdə tədqiqata daxil olan predmetlərin səthinin işlənilməsində daha çox maqnit, qeyri-maqnit və lüminessent tozlardan istifadə olunur*(bax fotoşəkil 9-12)*.



Fotoşəkil 9-12. Mərkəzdə fiziki üsulla aparılan tədqiqat zamanı istifadə edilən tozlar və fırçalar.

*Səthi hopma qabiliyyətli olmayan predmetlər üzərində əl-barmaq və papilyar naxış izlərinin aşkar edilməsində kimyəvi metodların tətbiqi:*

- sianakril məhlulu ilə işlənildikdə obyektin izlər əks olunmuş sahələri ağ rəngli təbəqə ilə örtülür.
- bu aşkarlanma xüsusi kameralarda (şkafda) həyata keçirilir.
- daktiloskopik tədqiqatlar aparılarkən daha çox böyük qabaritli obyektlər kameralara yerləşdirilir.
- səthi üzərində izlərin aşkar edilməsi məqsədilə aparılan daktiloskopik tədqiqatlarda tüfənglər, avtomatik silahlar, silahın yataqları, daraq və gilizlər daha çox MVC-3000 buxarlandırıcı kameraya yerləşdirilir.
- tədqiqata daxil olan predmetlər üzərində 6 aydan artıq müddətə yaranmış izlərin aşkarlanması zamanı daha çox kimyəvi üsul tətbiq edilməlidir.

Dünyanın bir çox ölkələrində predmetlər üzərində əl izlərinin aşkar edilməsində daha çox sianakril mürəkkəb efirindən istifadə edilir. Bu metodun tətbiqində istifadə olunan maddə zəhərli olsa da, kameranın təhlükəsizlik sistemi yalnız müvafiq filtrasiyadan sonra qapının açılmasına imkan verir *(bax fotoşəkil 13,14)*.



Fotoşəkil 13,14. Mərkəzdə aparılan tədqiqatlarda istifadə edilən MVC-3000 buxarlandırıcı kamera.

## IV. Aparılmış tədqiqatların nəticələri və aşkar edilmiş izlərin identifikasiya üçün əhəmiyyəti

Predmetlər kimyəvi üsulla işlənildikdə əl-barmaq və papilyar naxış izlərinin olduğu sahələr sinakrilat və suyun vakuum şəraitində reaksiyası nəticəsində ağ fonda aşkar olunur. Predmetlər fiziki üsulla işlənildikdə səthi tünd rəngli olan predmetlərdə açıq rəngli tozlardan, açıq rəngli predmetlərdə isə tünd rəngli tozladan istifadə edilir. Artıq bu zaman məhkəmə-daktiloskopik tədqiqatlarda anatilik mərhələ başlayır. Tədqiqata daxil olmuş predmetlərin səthi işlənildikdən sonra "Crime-lite ML" modelli elektrik lupa ilə tədqiq edilir. Bu mərhələdə izin forması, onun kordinatları, papilyar xətt axınlarının istiqaməti, naxış növü müəyyən edilir.

Aparılmış tədqiqatların nəticələrinə görə Mərkəzə daxil olmuş predmetlərdən 40-ında "müsbət" nəticə əldə edilərək əl-barmaq və papilyar naxış izləri aşkar edilmişdir. Digər predmetlərdə isə müxtəlif səbəblərdən əl-barmaq və papilyar naxış izləri aşkar edilməmişdir. Predmetlər üzərində aparılan tədqiqatların nəticələrinin "mənfi" alınmasının başlıca iki əsas səbəbi vardır:

I. predmetlər üzərində izlərin əks olunmaması;

II. predmetlər üzərində izlərin aşkar edilməməsi (ekspert tədqiqatı).

Xüsusi ədəbiyyatlarda predmetlər üzərində *izlərin əks olunmamasının səbəbləri* aşağıdakı kimi qruplaşdırılır:

- tədqiqata təqdim edilən obyektlərinsəthinin iz götürmə qabiliyyətinin zəif olması(məsələn, dərimaterialdan pulqabılar, alışqanlar və sair);
- qərarda soruşulan sahənin çox kiçik olması (məsələn,



silahın tətiyi);

- iz qoyan obyektin (insanın) tər piy ifrazatının zəif olması.

Ekspert təcrübəsi göstərir ki, aparılan araşdırmalara əsasən predmetlərdə*izlərin aşkar edilməməsinin səbəblərini* aşağıdakı faktorlarla əlaqəndirmək olar:

- cinayət hadisəsibaş verdikdənəhəmiyyətli müddət keçdikdən sonra tədqiqatobyektinin ekspertizaya göndərilməsi;
- hadisə yerində aşkar edilmiş obyektlərin tədqiqata göndərilən zaman düzgün qablaşdırılmaması.

Predmetlər üzərində izlər aşkar edildikdən sonra izlərin identifikasiya üçün yararlı olub-olmaması məsələsi həll olunur. İz yararlı hesab edildikdə, ekspert izlərin öyrənilməsinə və müfəssəl təhlilinə başlayır, sonradan müqayisəli tədqiqat üçün izlərdəki ümumi və xüsusi əlamətlər fərqləndirilir. Təhlil aparılan zaman iz üzərində mümkün təhriflərə diqqət yetirmək lazımdır, əgər təhrif varsa, nə cür yaranması aydınlaşdırılmalıdır (məsələn, bərk basılıb, iz qoyma zamanı yerindən tərpənib və sair).

Bəzən tədqiqat üçün müsbət nəticənin əldə olunması istintaq üçün müsbət həll vermədiyindən bir o qədər əhəmiyyət kəsb etmir. Belə ki, tədqiqat zamanı predmetlər üzərində izlərin aşkar edilməsi tədqiqatın müsbət nəticəsi hesab olunsa da eyniləşdirmə aparılmadığından istintaq üçün əhəmiyyət kəsb etmir. Məhz bu səbəbdən predmetlər üzərində aşkar edilmiş izlərin keyfiyyəti yoxlanıldıqdan sonra həmin izlərin kəmiyyət kateqoriyası yoxlanılmalıdır.

Daktiloskopik identifikasiyanın bu kəmiyyət meyarı XX əsrin əvvəllərində fransalı kriminalist V.Baltazar tərəfindən hesablanmış və müasir dövrdə bu meyarların daktiloskopik

standartlar adlandırılması təklif olunmuşdur. V.Baltazar apardığı tədqiqatla daktiloskopiyanın kəmiyyət standartını 12 müəyyən etmişdir. 12-yə bərabər götürülən kəmiyyət meyarı bir sıra ölkələrin məhkəmə orqanları və ekspertiza müəssisələrinin təcrübəsində uzun müddət fəaliyyətdə olmuşdur. Hal-hazırda Azərbaycanda, Avstraliyada və bir sıra digər ölkələrdə izlərin eyniləşdirilməsində kəmiyyət meyarı kimi 12 vahid götürülür.

Aparılan ümumiləşdirmə üzrə məlum olur ki, Mərkəzə təqdim edilən predmetlərinəksəriyyətində əl-barmaq və papilyar naxış izləri aşkar edilsədə, izlər eyniləşdirmənin kəmiyyət rəqəmini vermədiyindən tədqiqat üçün "yararlı" hesab edilməmişdir. Belə ki, iş materiallarına daktiloxəritəsi təqdim edilən şəxslə izlərin eyniləşdirilməsinin aparılması mümkün olmamışdır. Predmetlər üzərində "yararlı" izlərin aşkar edilməməsinin səbəblərinə bəzi iz götürən predmetlər üzərində izlərin yaranmasını dinamik izlərə aid etmək olar (məsələn, bıçağın dəstəyi). İnsan bıçağın dəstəyindən tutduqda dinamik hərəkətdə olur, məhz bu səbəbdən bıçağın dəstəyində yaranan izlər dinamik xarakterli olur.

Predmetlər üzərində izlərin aşkar edilməsi məqsədilə aparılan məhkəmə-daktiloskopik ekspertizalarla bağlı əldə edilmiş nəticələrin bir qisminin fotoşəkillərini təqdim edirik*(bax fotoşəkil 15-20)*.





Fotoşəkil 15-17. Tədqiqata təqdim edilmiş qənd qabının və onun qapağının alt hissəsindən aşkar edilmiş əl-barmaq izinin ümumi görünüşü.



Fotoşəkil 18-20. Tədqiqata təqdim edilmiş tüfəngin və onun lülə yatağında aşkar edilmiş izin ümumi görünüşü.

***Metodiki fəaliyyətimiz*** - Aparılan ümumiləşdirmənin nəticələrinə əsasən yoxlanılan dövr ərzində Mərkəzin Ballistik və trasoloji ekspertizalar şöbəsinin ekspertlərinin tədqiqata təqdim edilən predmetlərin düzgün qablaşdırılmamasına dair metodiki fəaliyyəti qənaətbəxş deyildir. Belə ki, yoxlanılan dövr ərzində tədqiqata təqdim edilən predmetlərdən 6-sına ekspertlər tərəfindən metodiki tövsiyə yazılmışdır.

Bu sahədəki ekspertlərin fəaliyyətinin qənaətbəxş olmaması, eləcə də predmetlər üzərində əl-barmaq izlərinin aşkar edilməsi məqsədilə məhkəmə-daktiloskopik ekspertizaların təyin edilməsinin artması ümumiləşdirmənin aparılmasını və bu sahədə metodiki tövsiyənin işlənib hazırlanmasını zəruri edən amillərdən biridir.

Eyni zamanda qeyd etmək lazımdır ki, metodiki fəaliyyətimiz sahəsindəbəzən hüquq mühafizə orqanları və məhkəmələr tərəfindən məhkəmə-daktiloskopik ekspertizasının formal təyin olunmasının qarşısı alınmışdır.Bu fakt ümumilədirmə zamanı müəyyən illər üzrə təyin edilən ekspertizalardan daha aydın görünür *(məsələn, məhkəmə baxışında tədqiqat obyektinin məhkəmə-daktiloskopik ekspertizaya göndərilməsi).*



## V. Hadisə yerinə baxış zamanı məhkəmə-daktiloskopik ekspertizasının aparılması üçün tədqiqat nümunələrinin götürülməsi və qablaşdırılmasına dair tövsiyələr

Hadisə yerinə baxış zamanı ekspertiza üçün tədqiqat nümunələrinin götürülməsi və qablaşdırılması zamanı tövsiyələrin hazırlanmasının məqsədi izləri təhrif və zədələnmədən qorumaqla diaqnostik və eyniləşdirici ekspert tədqiqatının müsbət həll edilməsinin təmin edilməsidir.

Hadisə yerinə baxış zamanı aşkar edilmiş predmetlər üzərində əl-barmaq izlərinin təyin edilməsi məqsədilə təyin edilən məhkəmə-daktiloskopik ekspertizasının nəticəsinin müsbət olması üçün aşağıdakıları tövsiyə edirik:

1. hadisə yerindən götürülmüş predmetlər dərhalvaxt itirmədən qısa müddət ərzində tədqiqata göndərilməli;

2. məhkəmə-daktiloskopik ekspertizası tədqiqatına göndərilən predmetlərin səthinin xüsusiyyətləri nəzərə alınmaqla düzgün qablaşdırılmalıdır. Təyin ediləcək daktiloskopik ekspertizasının apanlması zamanı müsbət nəticə əldə etmək üçün hadisə yerindən aşkar edilərək götürülmüş predmetlər ekspertiza tədqiqatına göndərilərkən üzərində ehtimal olunan əl-barmaq və papilyar naxış izlərinin itməməsi, keyfiyyətli aşkar edilməsi üçün aşağıda göstərilən qaydalara əməl etmək lazımdır:

- üzərində iz qalması ehtimal olunan predmetlər daktiloskopik ekspertiza tədqiqatına göndərilərkən həmin

predmetlər hər hansı digər predmetlərlə birlikdə qablaşdırılmamalı;

- həmin predmetlərin səthi boşluqda saxlanılmalı və onların yerləşdiyi sahənin tərpənməməsi, qablaşdırıldığı səthə toxunmaması təmin edilməli;

- alətlər, soyuq silah, tapança və ov tüfəngləri xüsusi hazırlanmış dayaqların üstünə düzülməli, sonra qutuya qoyulmalı və əşyaların yerini dəyişməməsi üçün bir neçə yerdən bərkidilməli;

- qablaşdırılmış əşyalar yeşiklərə və qutulara yerləşdirilməli, iplə dolanıb bağlanmalı, möhürlənməli, onlara müvafiq müşayiətedici qeydlər bərkidilməlidir.

3. şərait olduqda hadisə yerində aşkar edilmiş predmetlər üzərində təcrübəli mütəxəssislər tərəfindən yerində izlərin götürülməsinin mümkünlüyü diqqətdə saxlanılmalıdır.

4. iz qalma sahəsi soruşulduqda iz qalmanın predmet üzərində əks olunma xüsusiyyətləri nəzərə alınmalıdır *(məsələn, izlərin dinamik və ya statistik hərəkət zamanı yaranması).*

5. hadisə yerinə baxış zamanı müstəntiq cinayət hadisəsinin törədilmə vasitəsi ilə yanaşı, üzərində iz qalması ehtimal olunan obyektlər üzərində də əl-barmaq izlərinin çıxarılması üçün mütəxəssis dəvət etməlidir *(məsələn, xəsarət yetirmə zamanı bıçaqla yanaşı, qapıdan, ərafdakı predmetlər üzərindən də izlərin götürülməsi tövsiyə olunur).*



***Ekspertlərə məhkəmə-daktiloskopik ekspertizasının aparılması zamanı tövsiyə olunur:***

1. predmetlər üzərində izlərin aşkar edilməsi məqsədilə məhkəmə-daktiloskopik ekspertizası təyin edildikdə tədqiqat dərhal aparılmalıdır;

2. tərtib edilən rəylərdə izlərin aşkar edilməməsi səbəbləri mümkün qədər ətraflı izah edilməlidir;

3. aparılmış tədqiqatın və əldə edilmiş nəticələrin fotoşəkilləri rəyin daxilində aidiyyəti hissədə verilməlidir.

## Ədəbiyyat siyahısı:


1. Cavadov F.M. redaktəsi ilə "Məhkəmə ekspertizası". Dərslik. "Hüquq yayın evi", Bakı, 2018.
2. Cabarova G., A.Məmmədli, H.Hacıyev, K.Rzayev "Əl izlərinin eyniləşdirmə tədqiqatının metodikası", Bakı, 2013.
3. Cavadov F.M., Cabarova G., Hacıyeva M., Zeynalov M. "Hadisə yerində əl-barmaq izlərinin aşkar edilməsi, götürülməsi və materialların ekspertizaya göndərilməsi qaydaları". Metodiki vəsait. Bakı, 2002.
4. Əsgərov E. "Hadisə yerinə baxış zamanı kriminalistika texnikasından istifadəyə dair metodik vəsait". "Hüquq ədəbiyyatı" nəşriyyatı, Bakı, 2011.
5. Məmmədli A., Abuşov İ., Abbasov N. "Məhkəmə-daktiloskopik ekspertizası keçirilməsi üçün eksperimental əl-barmaq və ovuc izlərinin götürülməsi zamanı yol verilən nöqsanlar, onların aradan qaldırılması üsulları və həmin izlərin yeni formalı daktiloxəritələrə köçürülmüş qaydaları". Metodik vəsait. Bakı, 2005.
6. Sarıcalinskaya K.Q. redaktəsi ilə "Kriminalistika". Dərslik. "Hüquq ədəbiyyatı" nəşriyyatı. Bakı, 1999.
7. Parmak izi geliştirme Yöntemleri. Kriminal Dairesi Başkanlığı. Ankara, 2008.




| Tədqiqata təqdim edilən predmetlər | tüfəng | bıçaq | avtomatik silah | dəmir boru | alışqan | daraq | gilz | silahın yatağı | məişət əşyaları | pulqabı | mebel əşyaları | tornavida | nəqliyyat vasitəsi | çəkic | balta | qələm | butulka | polietilen paket | Hadisədən xeyli müddət keçdikdən sonra predmetin tədqiqata göndərilməsi (1 aydan çox) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| ***Ekspertizanı təyin edən orqanlar*** | | | | | | | | | | | | | | | | | | | |
| DİN-nin Baş İstintaq İdarəsi | - | 3 | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | 2 | 1 |
| DİN-nin şəhər (rayon) polis idarələri | 2 | 12 | - | 1 | - | - | - | - | 4 | 5 | 2 | - | 3 | 2 | 2 | - | 2 | 12 | 14 |
| AR-nınhərbiprokurorluqları | - | 1 | 29 | - | - | 17 | 17 | 3 | 1 | - | - | - | - | - | 1 | - | - | - | 5 |
| AR-nın şəhər (rayon) prokurorluqları | 37 | 61 | 6 | 3 | 1 | 20 | 24 | 2 | 9 | - | 1 | 1 | - | 2 | 5 | 1 | 12 | - | 35 |
| AR-nın Müdafiə Nazirliyi | 3 | - | 1 | - | - | - | 4 | - | - | 1 | - | - | - | - | - | - | - | - | 2 |
| AR-nın məhkəmələri | - | - | - | - | - | - | - | - | 1 | - | - | - | - | - | - | - | - | 18 | 19 |
| Dövlət Təhlükəsizlik Xidməti | - | - | 3 | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| Dövlət Sərhəd Xidməti | 2 | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| ***Cəmi*** | 44 | 77 | 39 | 4 | 1 | 37 | 45 | 5 | 15 | 6 | 3 | 1 | 3 | 4 | 8 | 1 | 14 | 32 | 76 |
| ***Cinayət işlərinin kateqoriyaları*** | | | | | | | | | | | | | | | | | | | |
| Qəsdən adamöldürmə (CM-nin 120-ci mad.) | 24 | 44 | 13 | 1 | - | 21 | 26 | 5 | 6 | 2 | 1 | - | 1 | 3 | 6 | 1 | 7 | - | 27 |
| Ehtiyatsızlıqdanadam öldürmə (CM-nin 124-cü maddəsi) | 1 | 3 | - | - | - | 1 | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| Özünü öldürmə həddinə çatdırma (CM-nin 125-cimad.) | 12 | 6 | 20 | 2 | - | 15 | 17 | - | 2 | - | - | - | - | - | - | - | 3 | - | - |
| Sağlamlığa xəsarət yetirmə (CM-nin 126-128-cimad.) | - | 18 | - | - | - | - | - | - | - | - | - | 1 | - | 1 | 1 | - | - | - | 8 |
| Oğurluq (CM-nin 177-ci mad.) | - | - | - | 1 | - | - | - | - | 3 | 3 | 1 | - | 2 | - | - | - | 2 | - | 4 |
| Zorlama (CM-nin 149-cu mad.) | - | - | - | - | 1 | - | - | - | 4 | 1 | 1 | - | - | - | - | - | 2 | - | - |
| Hədə-qorxu ilə tələb etmə (CM-nin 182-ci mad.) | - | 3 | - | - | - | - | - | - | - | - | - | - | - | - | 1 | - | - | - | 1 |
| Qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, satma, saxlama, daşıma gəzdirmə (CM-nin 228-ci maddəsi) | 2 | - | 4 | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| Odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə qorxu ilə tələb etmə (Cinayət Məcəlləsinin 232-ci mad | 3 | - | 2 | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | 2 |
| Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və onların prekursorlarını hazırlama, istehsal etmə,əldə etmə, saxlama, daşıma, göndərmə, satma (CM-nin 234-cü maddəsi) | - | 3 | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | 32 | 32 |
| Silahla və ətrafdakılar üçün təhlükə törədən əşyalarla davranış qaydalarını pozma (CM-nin 350-ci mad.) | 2 | - | - | - | - | - | 2 | - | - | - | - | - | - | - | - | - | - | - | 2 |

*Rəylərin tədqiqi hissəsinin cədvəli*

| ***Tədqiqata daxil olan predmetlər*** | Predmetin səthində izlərin aşkar edilməsi məqsədilə tətbiq edilənmetodlar | | Aparılmış tədqiqatın nəticəsi | | Aşkar edilmiş izlərin identifikasiya üçün əhəmiyyəti | | Predmetin qablaşdırılması ilə əlaqədar metodiki fəaliyyətimiz |
|---|---|---|---|---|---|---|---|
| | fiziki (tozlandırma) | kimyəvi (buxarlandırıcı kamera) | müsbət | mənfi | yararlı | yararsız | |
| tüfəng | 18 | 26 | 28 | 16 | - | yararsız | 6 predmet üzrə |
| bıçaq | 51 | 26 | 50 | 27 | - | yararsız | 8 predmet üzrə |
| avtomatiksilah | - | 39 | 35 | 4 | - | yararsız | 2 predmet üzrə |
| silahın darağı | - | 37 | 2 | 35 | - | yararsız | - |
| silahın yatağı | - | 5 | 1 | 4 | - | yararsız | - |
| giliz | - | 45 | - | 45 | - | - | - |
| dəmirboru | 1 | 3 | 1 | 3 | - | yararsız | - |
| alışqan | - | 1 | - | 1 | - | - | - |
| məişət əşyaları | 12 | 3 | 5 | 10 | 3 | yararsız | 2 predmet üzrə |
| pulqabı | - | 6 | 1 | 5 | - | yararsız | - |
| mebel əşyaları | 3 | - | - | 3 | - | yararsız | - |
| tornavida | 1 | - | - | 1 | - | yararsız | - |
| nəqliyyat vasitəsi | 3 | - | 1 | 2 | - | yararsız | - |
| çəkic | 4 | - | 1 | 3 | - | yararsız | - |
| balta | 2 | 6 | 2 | 6 | - | yararsız | - |
| qələm | - | 1 | - | 1 | - | - | 3 predmet üzrə |
| butulka | 6 | 8 | 2 | 12 | - | yararsız | 2 predmet üzrə |
| polietilen paket | 22 | 10 | - | 32 | - | yararsız | 12 predmet üzrə |
| ***Cəmi*** | 123 | 216 | 129 | 210 | 3 | | 35 |



## MÜNDƏRİCAT


I. Hadisə yerindən götürülərək ekspert tədqiqatına göndərilən obyektlər üzərində izlərin aşkar edilməməsi səbəblərinin müəyyən edilməsi məqsədilə 2016-2020-ci illər üzrə aparılmış ümumiləşdirmə nəticəsində əldə edilmiş məlumatlar .......... 3

II. Tədqiqat obyektlərinin qablaşdırılmasında yol verilən nöqsanlar .......... 14

III. Tədqiqata təqdim edilmiş predmetlər üzərində əl-barmaq izlərinin tədqiqatı .......... 18

IV. Aparılmış tədqiqatların nəticələri və aşkar edilmiş izlərin identifikasiya üçün əhəmiyyəti .......... 22

V. Hadisə yerinə baxış zamanı məhkəmə-daktiloskopik ekspertizasının aparılması üçün tədqiqat nümunələrinin götürülməsi və qablaşdırılmasına dair tövsiyələr ...... 27

Qeydlər üçün



Qeydlər üçün

*N.Abbasov, H.Hacıyev, A.Kişiyeva*

**Ekspertiza tədqiqatına təqdim edilən obyektlər üzərində əl-barmaq izlərinin aşkar edilməməsi səbəblərinin ümumiləşdirilməsi və nəticələrinə dair metodik tövsiyələr**

(2016-2020-ci illər üzrə)

"Ləman Nəşriyyat Poliqrafiya" MMC-də çoxaldılmışdır.

Format 61×84 1/16. Tiraj 200 ədəd.